# EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNDƏ YAŞIL ENERJİ SİYASƏTİNİN AZƏRBAYCAN NƏQLİYYAT SEKTORUNDA ROLU VƏ TƏDQİQİ

**Kamran Mustafayev**

*AMEA-nın Rəyasət Heyəti, Bakı*
*k.mustafa91@bk.ru*

Bu gün ölkəmizin əksər sahələrində olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi və bu sahədə tarazlığın qorunub bərpa olunması istiqamətində də mühüm işlər görülməkdədir. Fakt budur ki, indiyə kimi bu sahə ilə bağlı çoxsaylı proqramlar uğurla həyata keçirilib. Yəni, ekoloji tarazlığın qorunması sahəsində çoxsaylı addımlar atılıb. Beynəlxalq ekoloji proqramların uğurla həyata keçirilməsi, təbii sərvətlərin mühafizə olunması, milli parkların və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində mühüm rol oynayıb.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən, ölkəmiz beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanda 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Sözügedən Sərəncamda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun, eləcə də Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunduğu, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiq edildiyi və ekosistemin bərpa olunduğu qeyd edilmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi ekoloji siyasət bu gün də öz əhəmiyyətli rolunu qoruyub saxlamaqdadır. Belə ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ətraf mühitin mühafizə olunması, mütərəqqi texnologiyaya əsaslanan yeni müəssisələrin inşa olunması, yaşıllıqların və parkların salınması və s. məqsədlərlə atılan addımlar məhz ölkəmizin ekologiya sahəsinin inkişafında mühüm rol oynadı. Atılan addımların nəticəsidir ki, indiyə kimi ölkəmizdə ekoloji şəraitin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi sahəsində uğurlu nəticələr əldə olunub. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra, respublikamızın hər sahəsinə, ələlxüsus paytaxt Bakı şəhərinin yaşıllaşdırılmasına, ekoloji tarazlığın bərpasına xüsusi diqqət yetirilir.

Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə yüksək dərəcədə həssas bir ölkədir və artıq iqlim dəyişmələrinin mənfi təsirlərini – daşqınlar, sellər, quraqlıq, istilik stresləri və s. kimi təbiət hadisələrinin sayının artmasını özündə hiss edir. Bu da adekvat adaptasiya tədbirlərini ön plana çəkir.

Nəqliyyat sektorunda ekoloji şəraitin daha düzgün bölünməsi, ekoloji mühitin qorunmasında iqtisadi cəhətdən daha səmərəli və keyfiyyətli struktur təməlinin qoyulması çox əhəmiyyətli prosesdir. Nəqliyyat sektorunda ekoloji mühiti daha çox pozan və ekoloji mühitə daha çox ziyan vuran avtomobil nəqliyyat vasitələridir. Dünya ölkələri bu problemlərə qarşı hər il beynəlxalq tədbirlər və maarifləndirici məlumatlar sərgiləməkdədir. Belə olan şəraitdə ekoloji cəhətdən təmiz olan elektromobillərin dünya ölkələrində geniş yayılmasının səbəbləri ilə bağlı daha əhəmiyyətli tədbirləri və ona təsir edən amilləri araşdıraraq, aşağıdakıları qeyd etmək olar:

- Nəqliyyat vasitələrinin ətraf mühitə mənfi təsirinin azaldılması yollarından biri ekoloji cəhətdən təmiz avtomobillərdən istifadə olunmasının genişləndirilməsində dünya ölkələrinin bu sahədə praktikası və təcrübəsi nəzərə alınmaqla, nəqliyyat vasitələrinin ətraf mühitə mənfi təsirinin azaldılması məqsədilə ekoloji cəhətdən təmiz və yanacaq sərfiyyatı az olan elektrik və hibrid avtomobillərinin maddi cəhətdən daha uyğun olması üçün genişmiqyaslı strategiyalar həyata keçirilir, əhəmiyyətli addımlar atılır. Dünya təcrübəsində bu əhəmiyyətli addımlar kimi elektromobil alıcılarına, satıcılarına müxtəlif tipli güzəştlər tətbiq edilir, prioritetlər müəyyən olunur və maddi dəstək göstərilir. Təbii ki, belə amillər çox vacibdir və mütləq olaraq yaxşı nəticələr verir.
- Dünyada 5,1 milyondan çox elektromobil və hibrid avtomobildən istifadə olunur və bu avtomobillərin 80 faizi ABŞ, Çin, Yaponiya, Hollandiya və Norveç kimi ölkələrin payına düşür.

Elektromobil avtomobillərdən ən çox istifadə edən Çində istifadəçilər yol vergisindən, satışı ilə məşğul olanlar isə satış vergisindən azaddırlar və bu avtomobillərin qeydiyyata alınması üçün rüsum da

tələb olunmur. Elektriklə çalışan avtobusların əksəriyyəti də bu ölkənin payına düşür və onlar üçün ayrıca elektrikdoldurma məntəqələri fəaliyyət göstərir.

Böyük Britaniyada isə elektromobil avtomobillər aksiz və yol vergilərindən azaddırlar, istehlakçılara müxtəlif güzəşt və maddi dəstək təklif edilir, genişmiqyaslı enerjidoldurma məntəqələri qurulub. Öz həyətlərində şarj məntəqəsi quraşdıran elektrik və hibrid avtomobil istifadəçiləri isə istifadə etdikləri elektrik enerjisinə görə 20 faiz əvəzinə 5 faiz vergi ödəyirlər.

Türkiyədə də elektromobil sahiblərinə verilən güzəştlər çoxsaylıdır. Burada elektromobil istifadəçilərinə avtomobillərin mühərrik gücünə görə genişmiqyaslı güzəştli vergi dərəcəsi tətbiq olunur, çoxlu sayda şarj məntəqələri quraşdırılır və bu sahədə nəzərəçarpacaq irəliləyişlər əldə edilib. Elektromobillərin istifadəsinə dəstək vermək məqsədilə onların idxalçılarına və alıcılara dövlət tərəfindən subsidiyalar verilir. Norveç isə hər 1000 nəfərə düşən elektromobil sayına görə dünyada ən yüksək göstəriciyə malikdir. Burada istismar müddətinin bitməsinə az qalmış, havanı çirkləndirən nəqliyyat vasitələrinin istifadəsi qadağan edilir. 2025-ci ilədək isə ölkə ərazisində yanacaqla işləyən nəqliyyat vasitələrinin istifadəsinin tamamilə qadağan olunması planlaşdırılır. Dünya təcrübəsində elektromobillərlə bağlı tədbirlər dövlət-özəl qurumların əməkdaşlığı çərçivəsində həyata keçirilir.

- Elektrik və hibrid avtomobillərin Azərbaycanda istifadəsinin tətbiqi və təşviqi nəticəsində ətraf mühitə atılan zərərli maddələrin həcmini əhəmiyyətli dərəcədə azaltmaq olar?

- Ətraf mühitə daha az ziyan vuran elektrik və hibrid avtomobillərin istifadəsi, onların bu mühitə uyğunlaşdırılması və stimullaşdırılması ətraf mühitin qorunmasında vacib rol oynayır. Azərbaycanda da elektriklə çalışan avtomobillərin istifadəsinin genişləndirilməsi ölkənin ekoloji durumunu yaxşılaşdıra bilər.

Nəticə: Yuxarıda sadalanan araşdırmaların və bu kimi amillərin Azərbaycanın nəqliyyat sektorundakı rolu və tədqiqi üzrə ekoloji şəraitin və ətraf mühitin mühafizəsinin yaşıl enerji siyasəti ilə bağlı mühüm qarşılıqlı əlaqəsinin qurulması ilə mövcud problemlərin aradan qaldırılmasının mümkün olduğunu məqsədəuyğun hesab edirəm.

**Ədəbiyyat:**

1. https://www.faktinfo.az/news/ekologi-muhitin-qorunmasi-muhum-ehemiyyet-kesb-edir
2. https://president.az/az/articles/view/62737
3. https://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174652_85484600.pdf
4. https://azmiu.edu.az/upload/ckeditor/836137364.pdf